*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 28 noyabr 2015-ci il | № 91 (2007) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də İSESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.***

***İSESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri rəhbərlik etdiyi təşkilatın XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinə göstərdiyi dəstəyə və yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaqların Bakı ilə ilk tanışlıqdan valeh olduqlarını vurğulayan Əbdüləziz Osman əl-Tuveycri paytaxtda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi.***

***İSESCO-nun XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı imkan yaratdığını dedi.***

***Görüşdə Azərbaycan ilə İSESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Fransa Respublikasının Desentralizasiya və Dövlət Qulluğu üzrə Nazirliyinin regionların islahatları məsələləri üzrə dövlət katibi, hökumət üzvü Andre Vallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Prezident İlham Əliyev bu yaxınlarda Parisdə törədilmiş terror aktı ilə bağlı bir daha Azərbaycan xalqı adından Fransa xalqına başsağlığı verdi. Fransa Prezidenti Fransua Ollandın Azərbaycana iki dəfə səfər etməsini və özünün isə Fransaya çoxsaylı səfərlərini xatırlayan dövlətimizin başçısı bütün bunları ikitərəfli əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi.***

***Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, kosmik sənaye, müdafiə, təhsil, mədəniyyət və digər sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Gürcüstanın daxili işlər naziri Giorgi Mqebrişvilini qəbul edib.***

***Gürcüstana bu yaxınlarda etdiyi uğurlu rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı ikitərəfli münasibətlər, o cümlədən regional əməkdaşlıq və təhlükəsizlik ilə bağlı mühüm məsələlərin müzakirə olunduğunu vurğuladı. Regionda təhlükəsizliyin təmin olunması işində ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın rolunu xüsusi qeyd edən Prezident İlham Əliyev bu istiqamətdə əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini vurğuladı.***

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# "Biz daha da güclü olmalıyıq"

***Xəbər verildiyi kimi, noyabrın 24-də Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin ilk iclası keçirilib. İclasda Prezident İlham Əliyev nitq söyləyib. Dövlətimizin başçısı bildirib ki, son illərdə dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə də Azərbaycandır.***



"Əlbəttə, biz bunu böyük uğur kimi qəbul edirik. Bu gün bütün mötəbər beynəlxalq maliyyə-iqtisadi qurumlar bu reallıqları təsdiq edir və Azərbaycanı bəzi ölkələr üçün nümunə kimi göstərir. Bu, doğrudan da böyük uğurumuzdur. Təkcə ona görə yox ki, biz özümüzü dünyaya sürətlə inkişaf edən ölkə kimi təqdim edirik. İlk növbədə, ona görə ki, sürətli iqtisadi inkişaf insanların real həyatında da öz müsbət təsirini göstərir. Bizim apardığımız uğurlu iqtisadi islahatlar eyni zamanda güclü sosial siyasətlə tamamlanır. Məhz bunun nəticəsidir ki, son illər ərzində ölkəmiz yoxsulluğun və işsizliyin azaldılması sahəsində böyük uğurlara imza atıbdır. Bu gün Azərbaycanda həm yoxsulluq, həm işsizlik 5 faiz səviyyəsindədir və bu, dünya miqyasında ən gözəl göstəricilərdən biridir".

İqtisadi uğurlarla yanaşı, qarşıda duran problemlərə toxunan Prezident İlham Əliyev qeyd edib ki, birinci məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. "Əlbəttə ki, son illər ərzində bu sahədə heç bir irəliləyiş yoxdur. Ona görə ki, Ermənistan tərəfi sülh istəmir, münaqişəni həll etmək istəmir. Vaxt uzatmaq istəyir, müxtəlif bəhanələrlə danışıqlardan boyun qaçırır, təmas xəttində törədilən təxribatları da, Azərbaycanın bu təxribatlara adekvat cavabını da bəhanə kimi gətirir ki, danışıqlar prosesini pozsun.

Bu, reallıqdır. Biz real dünyada yaşayırıq. Beynəlxalq hüququn norma və prinsipləri, əlbəttə ki, bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə, tarixi ədalət də bizim tərəfimizdədir. Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı bu torpaqlarda əsrlər boyu yaşamış, yaratmışdır. Ermənilər Dağlıq Qarabağ ərazisinə XIX əsrdə köçürülmüşdür. Bu tarixi biz yaxşı bilirik və bütün dünya da bu tarixi bilməlidir. Son illər ərzində aparılan siyasət, o cümlədən deputatlar tərəfindən görülən işlər nəticəsində artıq geniş beynəlxalq ictimaiyyət bilir ki, bu, bizim tarixi torpağımızdır. Nəinki Dağlıq Qarabağ, eyni zamanda, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır və bunu sübut edən kifayət qədər dəlillər, tarixi faktlar var. Biz sadəcə olaraq bu faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, çatdırırıq və çatdıracağıq.

Bugünkü Ermənistan süni dövlətdir, tarixi Azərbaycan torpağında yaradılıb. Bir daha demək istəyirəm ki, bu həqiqətləri bütün dünya bilməlidir. Çünki münaqişənin həlli üçün, əlbəttə, tarixi əsaslar da mühüm rol oynayır. Uzun illər erməni təbliğatı sübut etməyə çalışırdı ki, Dağlıq Qarabağ onların tarixi torpağıdır. Lobbi qrupları vasitəsilə müəyyən dərəcədə ictimai rəyi çaşdıra bilmişdi. Ancaq son illər ərzində Azərbaycanın diplomatik səyləri, eyni zamanda, ictimai təşkilatların fəaliyyəti, dövlət siyasəti, əlbəttə ki, real mənzərəni dünya ictimaiyyətinin diqqətinə çatdırır və çatdıracaq".

İllərdən bəri üzləşdiyimiz hərbi münaqişənin həll edilməsi üçün heç bir tədbir görülmədiyini qeyd edən dövlət başçısı vurğulayıb ki, münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsas rol oynayır. "Bu qətnamələrdə birmənalı şəkildə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr yerinə yetirilməlidir. Bu münaqişənin həlli üçün başqa sənəd ola da bilməz. Çünki BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər beynəlxalq qurumudur.

Azərbaycan xalqı və dövləti heç vaxt imkan verə bilməz ki, Azərbaycan ərazisində ikinci qondarma "erməni dövləti" yaradılsın. Bizim bütün səylərimiz bu gün bu məqsədə xidmət edir. Biz bu məsələni bütün beynəlxalq təşkilatlarda müzakirə edirik. Bu məsələ bütün mötəbər tribunalardan səslənir və səslənməlidir. Mənim çıxışlarımda, deputatların çıxışlarında, bizim bütün digər ictimai xadimlərin çıxışlarında, xarici auditoriyalarda bu məsələ səslənməlidir.

Bununla bərabər, əlbəttə ki, diplomatik və siyasi səylər davam etdiriləcək. Minsk qrupunun fəaliyyəti əfsuslar olsun ki, bu günə qədər heç bir səmərə verməyib. Ancaq buna baxmayaraq, biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırmalıyıq və qaldırırıq. Bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasında çox dəyərli qərarlar qəbul edilibdir, digər təşkilatlarda bu fəaliyyət davam etdirilməlidir.

Minsk qrupunun həmsədrləri dünyanın aparıcı ölkələridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Onlar, əlbəttə ki, ilk növbədə öz qərarlarına hörmətlə yanaşmalıdırlar. Məhz onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrini qəbul etmişlər ki, orada erməni qüvvələrinin torpaqlarımızdan çıxarılması məsələsi qoyulubdur. Onlar ilk növbədə öz qərarlarına hörmət etməlidirlər. Biz onlardan bunu gözləyirik. Burada balanslı yanaşmadan söhbət gedə bilməz. Çünki işğalçını və işğala məruz olan ölkəni bir tərəziyə qoymaq olmaz".

Yenə də ölkə başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllini tapmamasında ikili standartlara yol verildiyini qeyd edib. Bildirib ki, biz başqa sahələrdə olduğu kimi, bu sahədə də ikili standartlarla üzləşirik. "İkili standartlar bu gün reallıqdır. Yenə də demək istəyirəm ki, biz real dünyada yaşayırıq və bu reallıqları nəzərə almalıyıq. Ancaq, eyni zamanda, öz prinsipial mövqeyimizi daim ifadə edəcəyik. Bir daha demək istəyirəm ki, münaqişənin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər. Bu məqsədə nail olmaq üçün Azərbaycan daha da güclü olmalıdır.

Bu gün əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları arxa plana keçibdir. İndi güc amili əsas rol oynayır. Kim güclüdür, o da haqlıdır. Biz daha da güclü olmalıyıq. Biz ölkəmizi gücləndiririk. Uzun illər iqtisadi islahatlarla, - burada digər amillər də rol oynayır, - hərbi potensialın möhkəmləndirilməsi ilə məşğuluq. Biz daha da güclü olmalıyıq. Həm siyasi, həm iqtisadi, həm hərbi gücümüz daha da artmalıdır.

Əlbəttə, əgər bu gün Ermənistanın arxasında güclü himayədarlar olmasa idi, bu məsələ çoxdan öz həllini tapardı. Ermənistan təkbaşına, xarici yardım almadan bizim qabağımızda duruş gətirə bilməzdi. Əlbəttə, bu gün Azərbaycan Ermənistandan bir neçə dəfə güclüdür, üstündür. Ancaq o da həqiqətdir ki, erməni lobbisi və müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları öz rolunu oynayır. Bu təşkilatlar müvafiq ölkələrin hökumətlərinə də təsir göstərir. Bax, bu amil bu gün münaqişənin həllində ən böyük əngəldir. Çünki Ermənistan təkbaşına beynəlxalq hüququ kobudcasına, bu dərəcədə kobud şəkildə poza bilməzdi.

Yenə də deyirəm, Azərbaycan öz yolu ilə gedəcək. Heç bir ölkə qondarma "Dağlıq Qarabağ qurumu"nu tanımır, tanımayacaqdır. Biz buna heç vaxt imkan verməyəcəyik, öz diplomatik, siyasi səylərimizi gücləndirəcəyik".

Prezident öz nitqində yenə də ordu quruculuğu məsələlərinə toxunub. Qeyd edib ki, hərbi potensialın gücləndirilməsi də bizim üçün prioritetdir.

- Son illərdə bu sahədə də böyük uğurlar əldə edilib. Ordumuzun döyüş qabiliyyəti artır. Ən müasir texnika, silah-sursat alınır. Bu gün beynəlxalq müstəvidə Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bu proses davam etdirilir. Baxmayaraq, bizim təbii ki, büdcə gəlirlərimiz azalıbdır. Ancaq hərbi xərclər ən prioritet məsələdir. Çünki, bir daha demək istəyirəm ki, bu, həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ümumiyyətlə, ölkəmizin təhlükəsizliyini təmin etmək üçün lazımdır.

Sonda ölkə başçısı bir daha əminliklə vurğulayıb ki, Azərbaycan müasir dövlətdir, ancaq dərin milli mənəvi dəyərlər üzərində qurulan bir dövlətdir. "Milli dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Azərbaycan müstəqillik yolu ilə gedir və gedəcək. Biz müstəqilliyimizi qoruyuruq və qoruyacağıq".

**AZƏRTAC-ın materialları əsasında**

## AŞPA Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən geri çəkilməsini tələb edir

***AŞPA-nın sosial məsələlər komitəsinin Parisdə keçirilən iclasında Ermənistan silahlı qüvvələrinin Sərsəng su anbarının yerləşdiyi bölgədən dərhal geri çəkilməsini tələb edən qətnamə layihəsi qəbul edilib.***

Bu barədə AZƏRTAC-a Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov məlumat verib. O deyib ki, "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" adlı məruzənin qətnamə layihəsində qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirilir. Ekoloji fəlakət sahələri yaratmaq və həmin ərazilərdə yaşayan əhalinin normal həyatını qeyri-mümkün etmək bir dövlətin digər dövlətə qarşı düşməncəsinə hərəkəti kimi qəbul edilməli olduğu, Sərsəng bəndinin baxımsızlığının xeyli sayda insan itkisi və mümkün yeni humanitar böhranla müşayiət olunan böyük fəlakətlə nəticələnə biləcəyi vurğulanır.

AŞPA bu qətnamədə Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən dərhal geri çəkilməsini, Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir, yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırmağı tələb edir. Parlament Assambleyası Ermənistan parlament nümayəndə heyətinin və Ermənistan hakimiyyətinin bu məruzənin hazırlanmasında əməkdaşlıq etməməsini qəti pisləyir, bu rəftarı Avropa Şurasının tamhüquqlu üzvü olan bir ölkənin öhdəlik və vəzifələrinə zidd hesab edir və parlamentarilərin mandatı dövründə yarana biləcək buna bənzər hallarda görülə biləcək tədbirləri nəzərdən keçirəcəyini bildirir.

**AZƏRTAC**

# Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib

## Silahlı Qüvvələrin rəhbər heyəti üçgünlük toplantıda iştirak edib

***Noyabrın 23-dən başlayaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün rəhbər heyətinin iştirakı ilə üçgünlük toplantı keçirilib.***

Müdafiə nazirinin müavinlərinin, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanlarının, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin, birlik və birləşmə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirakı ilə keçirilən toplantıda il ərzində orduda aparılan fəaliyyətlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib, perspektiv məsələlər müzakirə edilib.



Təlim mərkəzində və çöl-səhra şəraitində təşkil olunan hazırlıq məntəqələri və nöqtələrində nəzəri və praktiki məşqlər keçirilib.

Silahlı Qüvvələrin rəhbər heyətinin döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılması məqsədilə toplantıda silahlanmada olan zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra olunub, generallar və zabitlər müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetiriblər.

Toplantı iştirakçılarının ümumqoşun nizamnamələri, rəhbəredici və digər normativ-hüquqi sənədlərlə bağlı bilikləri üzrə məqbullar qəbul edilib, şəxsi heyətin fiziki hazırlığının səviyyəsi yoxlanılıb.

Noyabrın 25-də isə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2015-ci tədris ilində qoşunların hazırlığı üzrə yekunlara dair geniş kollegiya iclası keçirilib.



Toplantıda çıxış edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrin fəaliyyətinə verdiyi yüksək qiyməti və ordu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb. General-polkovnik Zakir Həsənov dövlətimizin başçısının qayğısı nəticəsində son bir ildə döyüş hazırlığı, şəxsi heyətin sosial-məişət təminatı, eləcə də digər sahələrdə planlı şəkildə həyata keçirilən fəaliyyətləri xüsusi qeyd edib.

Müdafiə naziri hesabat dövründə görülən tədbirlərin təhlilini apararaq xidməti döyüş fəaliyyəti, həyata keçirilən islahatlar, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi və onun hərtərəfli təminatı, düşmənin təxribat-kəşfiyyat qruplarının basqın cəhdlərinin qarşısının alınması, qoşunların mütəxəssislər ilə komplektləşdirilməsi, eləcə də əldə edilən digər nailiyyətlər və 2016-cı tədris ilində Silahlı Qüvvələrin vəzifələri barədə ətraflı məruzə ilə çıxış edib.

Sonra kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

Müdafiə nazirinin əmrinə əsasən, 2015-ci tədris ilində döyüş hazırlığının yekunlarına görə hərbi xidmətdə fərqlənən hərbi qulluqçular medallarla təltif edilib, təşəkkür, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş atışlı təlimləri keçirilib





***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qüvvə və vasitələri təlim çərçivəsində hazırlıq vəziyyətinə gətirilib.***

Döyüş şəraitinə maksimal yaxın vəziyyətdə qəfil həyəcan siqnalı ilə qaldırılan şəxsi heyətin döyüş qabiliyyəti, praktiki bacarığı, eləcə də döyüş vasitələrinin tətbiqi imkanları yoxlanılıb.

Təlim mərkəzində Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən döyüş tapşırığının yerinə yetirilməsi "Osa" 9A33BM-3 zenit-raket komplekslərinin istifadəsi ilə həyata keçirilib.

Şəxsi heyət hava məkanını pozan şərti düşməni aşkarlayaraq izlənməyə götürüb və təlim-döyüş tapşırığının yerinə yetirilməsi zamanı kiçik həcmli, aşağı yüksəklikdə, qrup halında uçan hədəflər raket zərbələri ilə dərhal məhv edilib.

Təlimdə qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 98 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonu Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Yarımca, Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şıxlar, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 104 dəfə atəş zərbəsi endirib.

***26 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 103 dəfə atəş zərbəsi endirib.

***27 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 105 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Dovex, Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Kəmərli, Qaymaqlı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonu Ağdam, Əlibəyli, Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Çaylı, Qızıloba, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şıxlar, Novruzlu, Baş Qərvənd, Qaraqaşlı, Şuraabad, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 107 dəfə atəş zərbəsi endirib.

# "Bayrağa hörmət xalqa və dövlətə sevginin təzahürüdür"

## Müsabiqənin qalibləri mükafatlandırılıb

***Azərbaycan Respublikasının əsas atributlarından biri də onun Dövlət bayrağıdır. Dövlət bayrağı müstəqilliyimizin və suverenliyimizin rəmzidir. Bayraq hər bir dövlətin mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Bayraq xalqların azadlıq mücadiləsinin, mənəvi dünyasının ən şəffaf və dəqiq meyarıdır.***



Xatırladaq ki, orduda mənəvi dəyərlərimizin təbliği məqsədilə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi bu ilin 27 avqust - 9 noyabr tarixlərində "Bayrağımız - milli qürurumuzdur" yazı müsabiqəsi elan edib. Müxtəlif bölgələrdə xidmət edən hərbi qulluqçular, xüsusən də əsgərlər bu müsabiqədə iştirak ediblər. Dövlət Bayrağı Günündə yekunlaşan müsabiqənin qalibləri ilə noyabrın 26-da Müdafiə Nazirliyində görüş keçirilib.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabitləri və Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri iştirak ediblər.

İdarə rəisi general-mayor Rasim Əliyev çıxış edərək müsabiqə qaliblərini təbrik edib və bildirib ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. "Bu istiqamətdə müxtəlif səpgili tədbirlər həyata keçirilir. Elə müsabiqənin keçirilməsində də əsas məqsəd hərbçilərin dünyagörüşünün formalaşması, mənəvi aləminin zənginləşməsidir".

General-mayor şəxsi heyətin bayrağımıza, himnimizə olan hörmət və sevgisini yüksək qiymətləndirərək bildirib ki, dövlət rəmzlərini yetərincə dəyərləndirib sevməyən insanda vətənpərvərlik hissləri formalaşa bilməz. "Əslində bu sevgi ailədə formalaşır. Balaca uşaqlar da harada olmalarından asılı olmayaraq Dövlət himnimizi eşidən kimi ayağa qalxır, əllərini ürəklərinin ustünə qoyurlar. Anlayırlar ki, Dövlət himnimizə, bayrağımıza xüsusi sevgi, hörmət olmalıdır".

- Bayrağa hörmət xalqa və dövlətə sevginin təzahürüdür, - deyən general-mayor Rasim Əliyev dövlətimizin başçısının "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" sözləri ilə çıxışını bitirib.



Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyət Ağadadaşova da müsabiqə qaliblərini təbrik edib, bayramlarda, əlamətdar tarixi günlərdə əsgərlərin yanında olmalarından, davamlı olaraq cəbhə bölgələrinə getmələrindən qürur duyduqlarını bildirib.

"Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlərdə və mötəbər idman yarışlarında milli birliyimizi təcəssüm etdirir. Bayrağımız şəhidlərimizin qanı, canı bahasına yüksəkliklərdə dalğalanır və dalğalanacaq".

Nazirliyin idarə rəisi və həmkarlar təşkilatının rəsmisi qalibləri bir daha təbrik edib, hərbi xidmətdə və gələcək həyatlarında onlara uğurlar arzulayıblar.

Müsabiqə qalibləri - əsgər Bayram İsmayılov (I yer), əsgər Cavad Həşimov (II yer), çavuş Samirə Ələsgərova və əsgər Elməddin Məmmədov (III yerlər) fəxri fərman, diplom və pul mükafatları ilə təltif olunublar.

Sonda xatirə şəkli çəkilib.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# “Torpaqlarımızın azad olunması üçün canımızı, qanımızı əsirgəməyəcəyik”



**Noyabrın 25-də Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət himni səsləndirilib.

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi I dərəcəli kapitan Əlimərdan Quliyev çıxış edib.

- Yoldaş zabitlər, miçmanlar, çavuşlar, kursantlar və matroslar. Hörmətli professor-müəllim heyəti. Bu gün məktəbimizin həyatında əlamətdar gündür. Hərbçi peşəsini özünə ömür yolu seçmiş bir qrup layiqli gənc kursu müvəffəqiyyətlə başa vurdu. Bu münasibətlə hər bir məzunu səmimi qəlbdən təbrik edir, Vətənimiz Azərbaycana layiqli övlad olmağı, daim Vətənin keşiyində cəsarətlə dayanmağı arzu edirəm.

Ali Hərbi Dənizçilik Məktəbi 1992-ci ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeçiliyinə verilərək Bakı Ali Hərbi Dənizçilik Məktəbi kimi fəaliyyətini davam etdirmiş, 20 avqust 2001-ci il tarixdə isə xalqımızın ümummilli lideri Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün kadr hazırlığının sonrakı inkişafı nəzərə alınaraq təhsil ocağının adı dəyişdirilərək Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi adlandırılmışdır.

Azərbaycanda ordu quruculuğunun faktiki olaraq 1993-cü ildən başlandığını bildirən natiq qeyd edib ki, ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi olmaqla yanaşı, praktik və güclü nəzəriyyəçi kimi ordu quruculuğu məsələsində də uzaqgörənlik nümayiş etdirdi. Qısa və mürəkkəb şəraitdə Azərbaycan Ordusunun formalaşdırılmasına nail ola bildi.

"Ölkəmizdə elmin və təhsilin yüksəlişi, o cümlədən, yüksək peşəkarlığa malik zabit kadrlarının hazırlanması Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır".

Məktəb rəisi vurğulayıb ki, hazırkı dövrdə ordu quruculuğu ümummilli liderin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin güclü diqqət və qayğısı ilə əhatə olunub. Digər xüsusi təyinatlı təhsil müəssisələri kimi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin inkişafı da ölkə rəhbərliyinin diqqət mərkəzindədir.



Çıxışının sonunda məktəb rəisi kursu bitirən şəxsi heyəti Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib və onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Kursu başa vuran şəxsi heyət adından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vüsal Azayev çıxış edərək deyib:

- Bu gün məzun oluruq və söz veririk ki, kurs müddətində öyrəndiklərimizi xidmətimizdə uğurla tətbiq edəcəyik. Torpaqlarımızın azad olunması üçün canımızı, qanımızı əsirgəməyəcəyik.

Sonda kursu bitirənlərə sertifikatlar təqdim olunub.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

*Təlim*

# Düşmən həm qətiyyətimizdən, həm də silahımızdan qorxur

***20 ildən artıqdır ki, rəsmi İrəvan Azərbaycan dövlətinin sülh çağırışlarını cavabsız qoyur, tez-tez atəşkəs rejimini pozur, müxtəlif dezinformasiyalar yayaraq vəziyyəti daha da gərginləşdirir. Cəbhə xətti boyunca müxtəlif səpkili təxribatlar törədən və hər dəfə ağır itkilər verərək geri çəkilən Ermənistan ordusunun rəhbərliyi öz uğursuzluqlarını erməni əhalisinə başqa tərzdə, tam fərqli şəkildə çatdırır. Öz xalqının etimadını itirən erməni hökuməti daxildəki ciddi narazılığı sakitləşdirmək, beynəlxalq təşkilatların diqqətini yayındırmaq üçün cəbhə xəttində müxtəlif hiylə və təxribatlara əl atır. Lakin səngərlərdə ayıq-sayıq dayanan hərbi qulluqçularımız tərəfindən onların bu çirkin niyyətləri puça çıxarılır.***



Azərbaycan Silahlı Qüvvələrinin həm silah arsenalı, həm də maddi-texniki təminat bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji və döyüş ruhu daha da yüksəlir. Həmçinin, xalqla ordu arasında möhkəm əlaqə, sarsılmaz birlik mövcuddur. Təbii ki, bütün bunlar Azərbaycan Silahlı Qüvvələrinin qələbə əzmini daha da artırır.

Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi kimi böyük təşkilatlanma yolu keçən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanaraq istənilən tapşırığın öhdəsindən layiqincə gəlir.

Təbii ki, Naxçıvan Muxtar Respublikasında güclü müdafiə qüdrətinə, yüksək döyüş qabiliyyətinə malik Əlahiddə Ümumqoşun Ordunun yaradılması əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasətinin uğurlu davamıdır. Bu gün müasir döyüş texnikaları ilə təchiz edilmiş Əlahiddə Ümumqoşun Orduda yüksək nizam-intizam və döyüş qabiliyyəti mövcuddur.



Şəxsi heyətin döyüş vərdişlərini artırmaq məqsədi ilə təlim mərkəzində T-122 "Sakarya" 122 mm-lik yaylım atəşli reaktiv sistemlərdən praktiki atışlar keçirilib.

Əvvəlcə pilotsuz uçan aparat vasitəsilə hava kəşfiyyatı aparılıb.

Sonra aktiv və passiv hissədə küləyin sürəti və istiqaməti təyin edilib. Hava hesabatları alınıb.

T-122 "Sakarya" sistemi 122 mm-lik artırılmış mənzilli raketlərdən atəş açılıb, hədəflər tam dəqiqliklə və vaxtında məhv edilib.

Qeyd edək ki, T-122 "Sakarya" 122 mm-lik yaylım atəşli reaktiv sistemlərindən biri ilə düşmənin 1 taborunun cəmləşmə rayonunu məhv etmək olar. Hətta mənzili artırılmış mərmilərlə düşmənin 40 km uzaqlıqdakı hədəflərini belə məhv etmək mümkündür.

Düşmən hərəkətə keçmədən öz yerində məhv edilə bilər. Çünki arsenalımızda olan müasir silah və texnikalarla düşmənə göz açdırmarıq. Bütün bunlar da onu deməyə əsas verir ki, Azərbaycan Ordusu düşmənin qorxulu kabusuna çevrilib.

**Nəriman NƏCƏFOV,**
**“Azərbaycan Ordusu”**

*Nümunəvi xidmət*

# Müqəddəs vəzifə

***Bu gün doğma ordumuzun sıralarında xidmət etməkdən qürur duyuram. Hələ orta məktəb illərində hərbi xidmətə, ordu həyatına böyük marağım var idi. Böyüyəndə hərbçi olacağıma qərar vermişdim. On səkkiz yaşım olanda ordu sıralarına yollandım. Əsgəri borcumu yerinə yetirəndən sonra gizirlər məktəbinə daxil oldum. Kursu uğurla başa vurandan sonra məni bu hərbi hissəyə göndərdilər.***



Neçə ildir xidmətdəyəm. İstifadəmizdə olan hərbi texnikaları bacarıqla idarə edirik. Sürücülərimiz xidməti vəzifələrinə məsuliyyət və diqqətlə yanaşırlar. Döyüş tapşırıqlarını yerinə yetirən hər kəs bir daha avtomobili texniki baxışdan keçirir. Hər hansı bir nasazlıq aşkarlanarsa, öz işinin ustası olan çilingərlərimiz tərəfindən avtomobil qısa müddətdə bərpa olunaraq işlək vəziyyətdə parka qoyulur. Müharibə şəraiti olduğuna görə istənilən vaxt bizə "çıxışa" komandası verilə bilər. Ona görə də bütün texnikaları saz vəziyyətdə saxlayırıq. Gün ərzində komandanlıq tərəfindən qarşıya qoyulan tapşırıqlar vaxtında yerinə yetirilir. İş prosesində texniki təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Məhz buna görə də işimizdə heç bir çətinlik yaranmır.

Bacarıqlı sürücülərdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Museyib Köçərli, Məhərrəm Səfərov, Tale Əkbərov və Orxan Səfərovun adlarını çəkmək istərdim. Onlar, bir qayda olaraq, idarə etdikləri avtomobilləri işlək vəziyyətdə saxlayırlar.

Bu gün biz hərbçilərin üzərinə böyük vəzifələr düşür. Başlıca vəzifələrimizdən biri də torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Bu müqəddəs bir vəzifədir. Onu yerinə yetirmək üçün hər an döyüşə, vuruşa hazırıq.

**Gizir**
**Tale KƏRİMOV,**
**"N" hərbi hissəsi**

*Sıra hazırlığı*

# İnamlı addımlar

Hərbi hissənin meydanında böyük canlanma var idi. Şəxsi heyət burada sıra hazırlığı məşğələsi keçirdi. Əsgərlərin addım səsləri uzaqdan aydınca eşidilirdi. Addım səsləri ritmik səslər qopararaq dalğa-dalğa ətrafa yayılırdı. Bu səsləri eşidəndə bizi xoş ovqat çuğladı. Ürəyimizə sevinc doldu, üzümüzə təbəssüm qondu.

Vaxt itirmədən meydanda sıra hazırlığı məşğələsi keçən şəxsi heyətə yaxınlaşdıq. Bizi burada qarşılayan baş leytenant Emil Məhərrəmov bildirdi ki, müntəzəm olaraq əsgərlərə dərs və məşğələlər keçirik. Şəxsi heyət döyüş hazırlığını artırmaq üçün səylərini əsirgəmir. Buna görə də əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Bu gün isə şəxsi heyətə sıra hazırlığı məşğələsi keçirik. Təcrübəli zabitlər gözəl deyib ki, sıra hazırlığı hərbi xidmətin əlifbasıdır. Ona görə də əsgərlərimiz sıra hazırlığını mükəmməl öyrəniblər. Onlar



hərəkətləri düzgün yerinə yetirirlər. Əl və ayaq hərəkətlərində, yerində dönmələrdə, sıradan çıxmalarda və başqa hərəkətlərdə səhvə yol vermirlər. Şəxsi heyət təkcə sıra hazırlığı məşğələsində deyil, başqa dərslərdə də fəal iştirak edərək bilik və vərdişlərə yiyələnir. Qazanılan uğurlar onları arxayınlaşdırmır. Hazırlıqları yüksək olduğuna görə şəxsi heyət xidmətin bütün sahələrində müsbət nəticə göstərir. Biz zabitlər isə əsgərlərimizin uğurlarını gördükcə sevinirik.

Baş leytenant Emil Məhərrəmov söhbətinin sonunda nümunəvi xidmət edənlərdən də söz açdı. Bildirdi ki, gizir Kamil Nərimanov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından Elvin Quliyev, Şükür Babayev, Ziya Həbibov, Rəsul Novruzzadə, əsgər Ziya Məmmədli və başqaları üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

Şəxsi heyətin sıra hazırlığı məşğələsi öz ardıcıllığı ilə davam edir. Əsgərlər baş leytenant Emil Məhərrəmovun əmrlərini cəld və çevik yerinə yetirirlər. İnamlı addımların səsi isə dalğa-dalğa ətrafa yayılır.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*

# “İçdiyim anda sadiq qalacağam”

Hərbi xidmətə Quba rayonundan çağırılmışam. On beş aydır ki, Vətənə borcumu bacarıqla yerinə yetirirəm.

Bir vaxtlar dostlarım hərbi xidmətdən qayıtdıqdan sonra ordu həyatından maraqlı söhbətlər edər, təlimlərdə iştirak etmələrindən, silahların sirlərinə necə yiyələnmələrindən ətraflı danışardılar. Eşitdiklərim hərbi xidmətə həvəsimi daha da artırırdı. Özümü əsgər formasında təsəvvür edəndə ürəyim açılır, qəlbim şadlanırdı. Günlər, həftələr ötdükcə zaman məni arzuma yaxınlaşdırırdı. Nəhayət, gözlədiyim gün gəlib çatdı. Ordu sıralarına çağırılmağım barədə çağırış vərəqi aldım. Həmin gün çox sevindim. Çünki artıq arzuma çatmışdım. Vətənə əsgər gedirdim. Mənim üçün bundan böyük sevinc yox idi. Doğmalarım, yaxınlarım həvəslə məni ordu sıralarına yola saldılar.

Hərbi hissəyə gələn gün bizə əsgər forması verdilər. Sevinə-sevinə onu alıb sinəmə sıxdım. Əynimə hərbi forma geyindiyim günü heç



vaxt yaddan çıxarmayacağam. Bir müddətdən sonra zabitlər bizimlə fərdi söhbətlər apardılar. Günlər keçdikcə məşğələlərdə hərbi biliklərə yiyələndik. Sırada addımlamağı, başqa hərbi vərdişləri mənimsədik. Sonra təlimlərdə iştirak etdim. İlk vaxtlar bir az həyəcanlı idim. Amma buna baxmayaraq, atış çalışması uğurla başa çatdı. İlk addımdan müsbət nəticə qazanmağım məni yaman sevindirdi.

Hərbi andı qəbul etdiyim anları da heç vaxt unutmayacağam. Həmin gün hərbi hissənin şəxsi heyəti əlamətdar hadisənin sevincini yaşadı. Biz təntənəli surətdə Vətənə sədaqət andı içdik. Bu əlamətdar tədbirdə valideynlərimizin də iştirak etməsi bizə qol-qanad verdi. Xidmətimin son gününə, son anına qədər içdiyim anda sadiq qalacağam. Silahların sirlərinə, döyüş vərdişlərinə dərindən yiyələnərək vəzifə borcumun öhdəsindən layiqincə gələcəyəm.

**Əsgər**
**Tehran ƏHMƏDOV,**
**"N" hərbi hissəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Roma Papasının Afrikaya tarixi səfəri başlayıb




Roma Papası Fransiskin Afrikaya tarixi səfəri başlayıb. Beş gün davam edəcək səfər çərçivəsində Roma Papasını 74 jurnalist müşayiət edir.

Papa Fransiskin Afrika ölkələrinə səfəri dinlərarası dialoqu və sülh içində birgəyaşayışı təbliğ etməkdir. Keniyada, Uqandada və Mərkəzi Afrika Respublikasında keçiriləcək bir sıra görüşlər çərçivəsində uzun illərdir ki, gərginliyin hökm sürdüyü bu bölgələrdə sabitliyin bərqərar edilməsi diqqət mərkəzində olacaq. Qeyd edək ki, Roma Papasının Afrikaya səfəri yüksək təhlükəsizlik tədbirləri əhatəsində həyata keçirilir. Müqəddəs Taxt-Tacın mətbuat idarəsinin rəhbəri Federiko Lombardinin sözlərinə görə, Fransa dairələri Roma Papasının Afrika səfəri zamanı mümkün risklərin mövcud olmasına dair xəbərdarlıq ediblər. "Lakin ümid edirik ki, səfər planlaşdırıldığı kimi davam edəcək və Roma Papası sülh mesajını bu bölgəyə çatdıra biləcək", - deyə o əlavə edib.

## Ukrayna öz hava məkanını Rusiyaya bağladığını elan edib



Ukrayna öz hava məkanını Rusiyaya bağladığını elan edib. Ukraynanın Baş naziri Arseni Yatsenyuk Rusiyanın bütün aviaşirkətlərinə tranzit keçid də daxil olmaqla Ukrayna hava məkanını bağlamaq qərarı verdiklərini açıqlayıb. Daha öncə Rusiya aviaşirkətlərinin Ukraynaya uçuşlarının qadağan olunması barədə qərar qəbul etdiklərini xatırladan A.Yatsenyuk Rusiya tərəfinin də Ukrayna istiqamətində yük və tranzit uçuş qadağalarını ləğv etməsini gözlədiklərini bildirib.

## Ölkələr 2050-ci ilədək külək, günəş və su enerjisindən istifadəyə keçə bilər



ABŞ-ın Stenford Universitetinin alimləri Kaliforniya Universitetindən olan həmkarlarının dəstəyi ilə 139 ölkənin enerji şəbəkə xəritəsini təhlil edərək 2050-ci ilədək əksər dövlətlərin bərpa olunan su, külək və günəş enerji mənbələrinə keçə bilməsi qənaətinə gəliblər. Alimlərin fikrincə, ənənəvi enerji mənbələrindən (neft, qaz və kömür) istifadədən imtina ilə bağlı qərarın qəbulu sırf siyasi xarakter daşıyır. Tədqiqatçıların hesablamalarına görə, ekoloji təmiz yanacaq növlərindən istifadə kifayət qədər ucuzdur və gələcəkdə bərpa olunan enerji mənbələri ucuzlaşmaqda davam edəcək. Belə ki, hazırda ABŞ-da külək enerjisindən hasil olunan hər kilovat-saatın qiyməti 3,5 sentdir. Eyni zamanda qaz qazanxanalarından əldə edilən hər kilovat-saat ölkəyə 8 sentə başa gəlir. Enerji hasilatı üzrə ekoloji təmiz müəssisələrin yaradılması 20 milyona yaxın insan üçün iş yeri açmağa imkan verəcək ki, bu da hazırda energetika sahəsində çalışanların sayından xeyli çoxdur.

## İşıq mənbələrindən istifadə olunan yeni "Li-Fi" texnologiyası ilk dəfə sınaqdan keçirilib



Məlumatların ötürülməsi üçün işıq mənbələrindən istifadə olunan yeni "Li-Fi" texnologiyası ilk dəfə real şəraitdə sınaqdan keçirilib. "Wi-Fi" şəbəkəsi ilə müqayisədə yeni şəbəkədə orta sürət 100 dəfə daha böyükdür. Estoniyanın "Velmenni" şirkəti Tallində bir neçə ofis və istehsal obyektində "Li-Fi" şəbəkəsini real rejimdə sınaqdan keçirib. Məlumatların ötürülməsi sürəti 1 Qbit/san təşkil edib. Qeyd edək ki, hazırda adi "Wi-Fi" şəbəkələrinin əksəriyyətində bu göstərici orta hesabla təxminən 10 Mbit/san təşkil edir. Ehtimal ki, "Li-Fi" texnologiyasının kütləviləşməsi ilə "Wi-Fi"ın fəaliyyəti dayanmayacaq. Məlumatların ötürülməsi sürətini yüksəltmək üçün mümkün olan yerdə "Li-Fi" avadanlığı quraşdırılacaq, digər qurğular isə mobil şəbəkə, "Wi-Fi" və yeni "işıq interneti" arasında asanlıqla keçid edə bilərlər.

## Filippindəki Kanlaon vulkanı püskürməyə başlayıb



Filippindəki Kanlaon vulkanı püskürməyə başlayıb. Filippin Seysmologiya və Vulkan Elmi İnstitutunun nümayəndələri Kanlaon vulkanında baş verən şiddətli partlayışdan sonra təxminən 2 min metr hündürlüyündə kül buludunun yarandığını açıqlayıblar. Mülki aviasiya səlahiyyətliləri isə pilotlara Kanlaon vulkanının ətrafından uzaq olmaları barədə xəbərdarlıq ediblər.

## Səudiyyə Ərəbistanı neft hasilatının həcminə görə dünyada birinci yerə çıxıb



Səudiyyə Ərəbistanı "qara qızıl" hasilatının həcminə görə 2003-cü ildən sonra ilk dəfə dünyada ən əsas ölkə adını özünə qaytarıb. Cari ilin doqquz ayının yekunlarına görə Səudiyyə Ərəbistanı Krallığı bu göstərici üzrə dünyada birinci yeri tutur. Bu ilin doqquz ayı ərzində Səudiyyə Ərəbistanında hər gün orta hesabla 10,19 milyon barrel neft hasil edilib. Eyni müddətdə hər gün orta hesabla 10,12 milyon barrel karbohidrogen istehsal etmiş Rusiya bu göstərici üzrə dünyada ikinci yerə düşüb. Səudiyyə Ərəbistanında neft sənayesinin bütün tarixi ərzində neft hasilatının indiki həcmi ən yüksək həddədir. Bundan əvvəl krallıqda neft hasilatının ən yüksək həcmi 2012-ci ildə qeydə alınıb. O vaxt gündəlik hasilatın həcmi 9,8 milyon barrel, neftin qiyməti isə 1 barrel üçün təxminən 112 dollar idi. Cari ilin doqquz ayı ərzində dünyada neft hasilatının həcmi 1,8 faiz artaraq gündə 74,2 milyon barrelə çatıb. Bu onunla bağlıdır ki, ən iri neft istehsalçıları bazarda öz paylarını qoruyub saxlamağa və neftin qiymətinin kəskin düşməsi ilə əlaqədar məruz qaldıqları ziyanı kompensasiya etməyə çalışaraq hasilatı artırıblar.

**AZƏRTAC-ın materialları əsasında**

